20 Yanvar tariximizin qəhrəmanlıq səhifəsidir!

02 (1308) 18-24 yanvar 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet Qiyməti razılaşma yolu ilə Qəzet 1999-cu ildən çıxır

## LƏNKƏRAN REGİONAL "ASAN XİDMƏT" MƏRKƏZİ İŞƏ SALINIB




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Lənkəran regional "ASAN xidmət" mərkəzinin açılışını edib.
Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev mərkəz barədə dövlətimizin başçısına məlumat verib.
Bildirilib ki, Lənkəran regional "ASAN xidmət" mərkəzi rayonun Qurumba kəndində inşa edilib.
Dövlətimizin başçısı Lənkəran regional "ASAN xidmət" mərkəzini işə salıb.
Lənkəran, Astara, Lerik və Yardımlı rayonlarında qeydiyyatda olan ümumilikdə 500 minə yaxın vətəndaşa xidmət edəcək mərkəz ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərəcək. Burada 214 əməkdaş və 40 könüllü çalışacaq.
Regionda startapların inkişafını təmin etmək məqsədilə burada "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi də fəaliyyət göstərəcək.
Burada, həmçinin ASAN İnnovativ İnkişaf Mərkəzinin fəaliyyət göstərməsi nəzərdə tutulur. Əsas məqsəd qabaqcıl ASAN təcrübəsini, innovativ və yeni təlim metodlarını tətbiq etməklə ölkəmizdə müxtəlif özəl və dövlət qurumlarında çalışan kadrların peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsinə müsbət töhfələr verməkdir.
Dövlətimizin başçısına Lənkəran "ASAN xidmət" mərkəzində tətbiq olunacaq innovativ yeniliklər - İntellektual məhsul ixracı, Etimad Fondu, Dövlət Xidmətlərinin Akselerasiya Mərkəzi, Universal operator, Süni intellekt əsaslı xidmətlər və smart qolbaq barədə məlumat verilib.
İşğaldan azad olunmuş ərazilərdə "ASAN xidmət"lə əlaqədar bildirilib ki, mərkəzlərin qurulması üçün Dövlət Agentliyi tərəfindən 7 rayonda təhlillər aparılıb. Təhlillər nəticəsində proqnozlaşdırılan müraciət sayı və əlverişli coğrafi mövqeyə uyğun olaraq Ağdam, Laçın və Cəbrayıl rayonlarında "ASAN xidmət" mərkəzlərinin qurulmasının məqsədəuyğunluğu müəyyənləşdirilib. Eyni zamanda, hazırda Şuşa şəhərində də "ASAN xidmət"in binasının inşası davam etdirilir.

## NEFTÇALA ŞƏHƏRİNDƏ İÇMƏLİ SU TƏCHİZATI VƏ KANALİZASİYA SİSTEMLƏRİ YENİDƏN QURULUR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Neftçala şəhərinin içməli su təchizatı sistemlərinin istismara verilməsi tədbirində iştirak edib.
Bildirilib ki, Neftçala şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi dövlət büdcəsi hesabına həyata keçirilir. Layihə Neftçala rayonu üzrə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla 89 min nəfərin içməli su təchizatının yaxşılaşdırılmasına hesablanıb.
Prezident İlham Əliyevin təsdiqlədiyi "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"na uyğun olaraq qısa müddət ərzində Şirvan-Muğan qrup su kəmərindən Neftçala şəhərinə qədər diametri 560 millimetr, uzunluğu 40 kilometr olan birinci magistral su kəməri çəkilib və Salyan şəhəri yaxınlığında tutumu 7500 kubmetr olan su anbarı inşa edilib. 2020-ci ilin noyabr ayında Neftçala şəhərinə suyun verilməsi təmin olunub. 2023-cü ildə Neftçala rayonunun qəsəbə və kəndlərinin su təchizatına xidmət edəcək diametrləri 560-450 millimetr, uzunluğu 36 kilometr olan ikinci magistral su kəmərinin tikintisi işləri yekunlaşıb.
Bununla paralel olaraq, Neftçala şəhərində ümumi uzunluğu 150 kilometr içməli su təchizatı şəbəkəsi inşa edilib və 5060 saygac quraşdırılaraq şəhərin su təchizatı sisteminin yenidən qurulması işləri tam yekunlaşıb.

## YENİ HƏRBİ HOSPİTAL XƏSTƏLƏRƏ ƏN YÜKSƏK SƏVİYYƏDƏ ÇOXFUNKSİONALLI XİDMƏT GÖSTƏRƏCƏK



Yanvarın 15-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Bakıda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hospital kompleksinin açılışında iştirak edib.
Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verib.
Bildirilib ki, hərbi hospitalın köhnə binası XX əsrin 70-ci illərində inşa olunub. Yeni hərbi hospitalda ən son elmi-texniki nailiyyətlərə və müharibə təcrübəsinə əsaslanan tibbi müayinə və müalicə imkanları yaradılıb. Dünyanın qabaqcıl ölkələrində istehsal olunan tibbi avadanlıqlarla təchiz edilmiş hərbi hospitalın ürək-damar cərrahiyyəsi, invaziv kardiologiya, nevrologiya və digər tibbi fəaliyyət sahələri xəstələrə ən yüksək səviyyədə çoxfunksionallı xidmət göstərəcək.

## BÖLGƏLƏRDƏ YENİ PENİTENSİAR MÜƏSSİSƏLƏRİN TİKİLMƏSİ ÖLKƏMİZDƏ APARILAN KÖKLÜ İSLAHATLARIN TƏRKİB HİSSƏSİDİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Ədliyyə Nazirliyinin Lənkəranda yeni inşa edilmiş müasir penitensiar kompleksində yaradılan şəraitlə tanış olub.
Bildirilib ki, ümumi saxlama limiti 1300 nəfərlik olan penitensiar kompleks iki zonadan ibarətdir. Burada istintaq təcridxanasında barəsində həbs qətimkan tədbiri seçilmiş şəxslərin, cəzaçəkmə müəssisəsində isə məhkumların məhkəmə hökmünə əsasən müxtəlif rejimlərdə saxlanılması nəzərdə tutulur. Müəssisədə əsasən cənub zonası və bu bölgəyə yaxın olan ərazilərdə yaşayan şəxslər saxlanılacaq ki, bununla onlar öz ailələri ilə daha asan və rahat görüşə biləcəklər.
Kompleksdə kamera tipli 7 korpus inşa olunub və burada hər cür şərait yaradılıb.
Komplekslə tanışlıq zamanı dövlətimizin başçısına müəssisədə quraşdırılmış "ƏN TEZ" (Ədliyyə Nazirliyinə Təcili Elektron Zəng) Xidmət platforması nümayiş etdirilib.
"ƏN TEZ" Xidmətin Lənkəran penitensiar kompleksində istifadəyə verilməsi məhkumlara, onlarla görüşə gələn vətəndaşlara, eləcə də müəssisənin əməkdaşlarına ədliyyə xidmətlərindən yerində bəhrələnmək imkanı verəcək.
Bölgələrdə yeni penitensiar müəssisələrin tikilməsi ölkəmizdə aparılan köklü islahatların tərkib hissəsidir. Bu müəssisələrdə yaradılan müasir şərait məhkumların hüquqlarının təminatına, onların öz ailələrinə yaxın ərazilərdə cəza çəkmələrinə və cəmiyyətə reinteqrasiyasına xidmət edir.

## "MÜSTƏQİL TARİXİMİZİN ƏN HƏLLEDİCİ MƏQAMI MƏHZ 2003-CÜ İL İDİ"



"Son 20 ilin tarixi göz qabağındadır və əsas məsələ ondadır ki, 2003-cü ildə Azərbaycan xalqı düzgün seçim etmişdi".
Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bildirib.
*"Çünki hesab edirəm ki, müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi. Çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmişdi, yəni, Heydər Əliyev siyasəti davam etdirildi. Əgər tarix başqa istiqamətdə getsəydi, bilmək olmaz, xalqımız, dövlətimiz hansı bəlalar, faciələrlə üzləşə bilərdi"*, - deyə dövlətimizin başçısı vurğulayıb.

## "LARAN" MMC-DƏ İSTEHSAL EDİLƏN MƏHSULLAR HƏM YERLİ BAZARA ÇIXARILIR, HƏM DƏ DÜNYA ÖLKƏLƏRİNƏ İXRAC EDİLİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Lənkəranda "Laran" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) qənnadı məhsullarının istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olub.
Bildirilib ki, ümumi dəyəri 5 milyon manat olan layihənin həyata keçirilməsinə dövlət dəstəyi olaraq Sahibkarlığın İnkişafı Fondu 1,2 milyon manat güzəştli kredit ayırıb. İllik istehsal gücü natura ifadəsində 2000-2500 ton (hazırda 1500-1800 ton istehsal edilir) olan müəssisədə 5 növdə və 56 çeşiddə, o cümlədən karamel, lokum, şokoladlı lokum, marmelad, şokoladlı marmelad istehsal edilir. Burada quraşdırılan avadanlıq Braziliya, Türkiyə, Çin və Rusiya istehsalıdır. Müəssisədə istehsal edilən məhsullar daxili bazarla yanaşı, Rusiya, İsrail, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Moldova və İraqa da ixrac olunur. Hazırda müəssisədə 120 nəfər çalışır.

## "Bugünkü Azərbaycan dünya miqyasında güclü ölkələr sırasındadır"

"Bugünkü Azərbaycan, sözün əsl mənasında, dünya miqyasında güclü ölkələr sırasındadır".
Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində söyləyib.
Bu gün ölkə qarşısında duran yeni vəzifələrin yeni dövrün vəzifələri olduğunu diqqətə çatdıran dövlətimizin başçısı qeyd edib: *"Biz əsas vəzifəni bir neçə ay bundan əvvəl həll etmişik, ölkəmizin suverenliyini tam bərpa etmişik və sentyabr hadisələri, əlbəttə ki, ümumi kontekstdən çıxarıla bilməz"*.

## "Müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayıb"

"Sentyabra qədər (2023-cü il – red.) getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi".
Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində deyib.
*"İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi"*, - deyən dövlətimizin başçısı vurğulayıb ki, bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq. Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayıb.

## "Üçtərəfli Bəyanatın o şərtlərlə qəbul edilməsi bizim böyük siyasi uğurumuzdur"

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində deyib. Dövlətimizin başçısı bildirib ki, əlbəttə, əgər Şuşa işğaldan azad olunmasaydı, o şərtləri biz o Bəyanata saldıra bilməzdik. Yəni, bizim Qələbəmiz, güclü olmağımız imkan verdi ki, biz hətta bu məsələyə aid olmayan şərtləri də oraya saldıraq, xüsusilə Zəngəzur dəhlizi ilə bağlı.

## "Fərrux", "Sarıbaba-Qırxqız", "Qisas" əməliyyatları məqsədyönlü əməliyyatlar idi"

"23 aprel hadisələri çox önəmli bir tarixdir. Bütün sərhədlərə biz nəzarət etməyə başlamışdıq və bir daha göstərdik ki, bu torpaqların sahibləri bizik". Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində deyib.
Aprelin 23-nə qədər də bir neçə dəfə Ermənistana və yerli separatçılara bunun (Qarabağın – red.) bizim torpağımız olduğunu nümayiş etdirdiyimizi, "Fərrux", "Sarıbaba-Qırxqız", "Qisas" əməliyyatlarının tərəfimizdən aparılmış önəmli hərbi əməliyyatlar olduğunu xatırladan dövlətimizin başçısı diqqətə çatdırıb: *"Bu əməliyyatlar nəticəsində o vaxt nəzarətimizdə olmayan Qarabağ bölgəsinin strateji təpələri, yüksəklikləri biz tərəfdən götürülmüşdür və 19-20 sentyabr əməliyyatı üçün bunun çox böyük əhəmiyyəti var idi. Yəni, o əməliyyatlar, sadəcə olaraq, kortəbii seçilməmişdi, məqsədyönlü əməliyyatlar idi"*.

## "Fransız müstəmləkələrinin Fransanın zülmündən azad olunması prosesini dəstəkləyəcəyik"

"Biz yolumuza davam edəcəyik. Qoşulmama Hərəkatında sədrliyimiz başa çatır, amma Bakı Təşəbbüs Qrupu yaşayacaq".
Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində söyləyib.
*"Biz fransız neokolonializminin ifşa olunmasını və fransız müstəmləkələrinin Fransanın zülmündən azad olunması prosesini dəstəkləyəcəyik"*, - deyə dövlətimizin başçısı əlavə edib. Xurşidbanu Natəvanın Fransada heykəlinin təhqir olunması məsələsinə də toxunan Prezident bu hadisə ilə ermənilərin Natəvanın Ağdamdakı məzarını qazmaları arasında müqayisə aparıb, burada bir oxşarlığın olduğunu qeyd edib.

## "Dediyim marşrut açılmasa, biz Ermənistanla heç bir başqa yerdə sərhədimizi açmaq fikrində deyilik"

"Azərbaycandan Azərbaycana insanlar və yüklər heç bir yoxlama aparılmadan keçməlidir".
Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində deyib.
Dövlətimizin başçısı deyib ki, əks təqdirdə, Ermənistan əbədi dalan kimi qalacaq və əgər, dediyim marşrut (Zəngəzur dəhlizi – red.) açılmasa, biz Ermənistanla heç bir başqa yerdə sərhədimizi açmaq fikrində deyilik. Yəni, beləliklə, onlar bundan daha çox ziyan görəcəklər, nəinki xeyir.

## "Xocalı soyqırımını törədən canilər ədalət qarşısında cavab verəcəklər"

"Bizə qarşı qanlı müharibə aparan, vandallıq törədən, Xocalı soyqırımını törədən, torpaqlarımızı, şəhərlərimizi, kəndlərimizi yerlə-yeksan edən canilər bu gün həbs olunub, saxlanılıb və ədalət qarşısında cavab verəcəklər".
Bunu Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində deyib.
Onların arasında Qarabağda olmuş bütün dırnaqarası keçmiş liderlər, ondan sonra Qarabağa ixrac edilmiş dırnaqarası baş nazir və digərlərinin yer aldığını bildirən dövlətimizin başçısı vurğulayıb. *"O qruplaşmada təkcə iki nəfər çatışmır, onlar da İrəvandadırlar, onlar da olsa, onda tam heyət formalaşır. Bu, doğrudan da ədalətin Zəfəridir və mən deyəndə ki, ədalətə inanmaq lazımdır və ədaləti təmin etmək üçün mübarizə aparmaq lazımdır, məhz bunu nəzərdə tuturdum"*.

## "Bu il Qarabağ, Şərqi Zəngəzurda infrastruktur layihələrinin hamısı davam etdiriləcək"

"Laçın, Füzuli şəhərləri, Ağalı, Talış və Zabux kəndləri artıq dirçəlir. Bu il həmin yaşayış məntəqələrinə keçmiş köçkünlərin qaytarılması davam edəcək".
Bunu Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bildirib. Bu ilin İnvestisiya Proqramının artıq bir neçə dəfə müzakirədən keçdiyini, yaxın günlərdə təsdiqlənəcəyini söyləyən dövlətimizin başçısı diqqətə çatdırıb: *"Bu il Qarabağ, Şərqi Zəngəzurda infrastruktur layihələrinin hamısı davam etdiriləcək. Bu, nəhəng layihələrdir"*.

## "Biz öz haqq işimizi yekunlaşdırmışıq və ədaləti özümüz bərpa etmişik"

"Biz hamımız gördük ki, bəli, ədalət zəfər çalıb, biz öz haqq işimizi yekunlaşdırmışıq və ədaləti özümüz bərpa etmişik". Bu fikri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində səsləndirib.
*"Halbuki, əfsuslar olsun ki, beynəlxalq aləmin əsas oyunçuları bizim bu fikrimizə şərik olmadılar. Əksinə, bizi ittiham etməyə çalışdılar, bizə qarşı müxtəlif təzyiq mexanizmlərini işə salmağa çalışdılar"*, - deyən dövlətimizin başçısı bildirib ki, biz bu ədaləti, eyni zamanda, beynəlxalq müstəvidə siyasi və diplomatik savaş apararaq əldə etmişik. Ona görə bizim zəfərimizin əhəmiyyəti daha önəmlidir.

## "Xankəndidə Bayrağın qaldırılması Zəfərimizin son nöqtəsi idi"

"Xocalıda Bayrağı qaldıranda fikirləşirdim, bax, bu gün biz tam əminliklə deyə bilərik ki, Xocalı qurbanlarının qanı yerdə qalmadı. Xankəndidə isə Bayrağın qaldırılması ədalətin tam bərpası idi və zəfərimizin son nöqtəsi idi". Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində deyib.
Bunların tarixi anlar olduğunu bildirən dövlətimizin başçısı qeyd edib: *"Biz hamımız xoşbəxtik ki, bu dövrdə yaşayırıq, bu dövrün şahidləriyik, bu böyük zəfərin əldə olunmasında iştirak etmişik"*. Xalqımızın bütün təbəqələrinin öz işi ilə bu qələbəni yaxınlaşdırdığını söyləyən Prezident vurğulayıb ki, bu, ümummilli bir məsələyə, ümummilli hərəkata çevrildi və 30 il ərzində bu mövzu unudulmadı.

## "Yeni Laçın-Xankəndi yolunun çəkilməsi 23 aprel hadisələrinin təməlini qoymuşdu"

"İkinci Qarabağ müharibəsi başa çatandan bir müddətdən sonra yerli ermənilərin bəzilərini bizim nümayəndələrimizə çıxaraq təmaslar haqqında təkliflər vermişdilər və biz də imtina etmədik".
Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində deyib.
Məqsədimizin ölkəmizin suverenliyini tam bərpa etmək və burada yaşayan əhalini vahid Azərbaycan dövləti çərçivəsində rahat və təhlükəsiz yaşaya biləcəyinə inandırmaq olduğunu xatırladan dövlətimizin başçısı bildirib: *"Bizim niyyətimiz çox açıq, aydın idi və o təmaslar əsnasında bəzi müsbət addımlar da atılmışdır. Yəni ki, yeni Laçın-Xankəndi yolu marşrutunun müəyyən edilməsi, çəkilməsi çox önəmli hadisə idi və 23 aprel hadisələrinin elə bil ki, təməlini qoymuşdu. Çünki biz artıq yeni yol çəkərək Laçın şəhərini özümüzə qaytardıq"*.

## "Bizimlə hədə-qorxu dili ilə, yaxud təkəbbürlə davranmaq mümkün deyil"

"İkinci Qarabağ müharibəsindən sonra Qarabağda nələr baş verdiyindən tam xəbərdar idik, həm vizual, həm operativ nəzarət edirdik. Yəni, bunu Ermənistana çatdırmağa çalışırdıq ki, bu, bizim nəzarətimizdədir və istənilən an biz əməliyyat keçirə bilərik".
Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində ifadə edib.
Həm Ermənistan rəhbərliyinə, həm də beynəlxalq aktorlara bir dəqiqə ərzində düyməyə basıb bu əməliyyatı keçirəcəyini, onların heç nə də edə bilməyəcəklərini açıq şəkildə dediyini vurğulayan dövlətimizin başçısı bildirib: *"Bu hadisələrin gedişatı onu göstərdi ki, - hesab edirəm, bu, təkcə Ermənistan üçün yox, Ermənistanın arxasında dayananlar üçün də bir dərs olmalıdır, - bizimlə hədə-qorxu dili ilə, yaxud da təkəbbürlə davranmaq mümkün deyil"*.

## "Prezident İlham Əliyev fevralda keçiriləcək növbədənkənar seçkiləri şərtləndirən əsas amilləri açıqlayıb"

Dövlətimizin başçısı İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində fevralın 7-nə təyin edilən növbədənkənar prezident seçkilərini şərtləndirən əsas amilləri açıqlayıb.
Prezident İlham Əliyev bunun, ilk növbədə, sentyabr hadisələrindən sonra yeni dövrün başlanğıcı ilə əlaqədar olduğunu bildirib.
O qeyd edib ki, ikinci səbəb müstəqil həyatımızda ərazilərimizin hər bir yerində keçiriləcək birinci seçkilərin məhz prezident seçkilərinin olmasının vacibliyidir.
Dövlətimizin başçısı digər səbəbi isə bu cür izah edib: *"Mənim Prezident kimi fəaliyyətimin 20 ili tamamlandı. Bu da bir dövrdür və bunu da biz bir yekun kimi qəbul etməliyik. 20 ildən sonra yenidən prezident seçkilərinin keçirilməsi təbii ki, bu xronoloji dövrü də əsaslandırmış olur"*.

## "Ermənistanı silahlandıran, növbəti müharibəyə hazırlayan ölkə Fransadır"

"Bizə qarşı olan mənfi münasibət, ənənəvi mənbələrdən gələn mənfi münasibət dayanmayacaq. Ermənistanı silahlandırma cəhdləri bu məqsədi daşıyır ki, bizi daim təzyiq altında saxlasınlar".
Bu fikirləri Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində səsləndirib.
Dövlətimizin başçısı deyib ki, bu, bizi bundan sonra da rahat yaşamağa qoymamaq üçün səylərdir və əfsuslar olsun, burada da Fransa yenə ön plandadır. *"Bu gün Ermənistanı silahlandıran, onlara ürək-dirək verən, onların hərbçilərini hazırlayan və növbəti müharibəyə hazırlayan ölkə Fransadır. Ona görə mən deyəndə ki, Fransanın siyasəti Qafqazda gərginliyin artmasına səbəb olur, məhz bunu nəzərdə tuturdum"*, - deyə Prezident vurğulayıb.

## "Bu gün işğal altında qalan səkkiz kəndin məsələsi daim gündəlikdədir"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində ölkəmizin hələ də işğal altında qalan kəndləri barədə danışıb.
Dövlətimizin başçısı bu gün işğal altında qalan səkkiz kəndin məsələsinin daim gündəlikdə olduğunu bildirib.
*"Bu məsələ həm mənim Ermənistanın baş naziri ilə təmaslar əsnasında müzakirə edilir, o cümlədən Sankt-Peterburqda ayaqüstü son söhbət zamanı mən bu məsələni qaldırmışdım və eyni zamanda, delimitasiya ilə bağlı komissiyaların gündəliyində də bu məsələ dayanır. Onu da bildirməliyəm ki, komissiyaların növbəti görüşü bu ay nəzərdə tutulur və orada bir mövzu olacaq: həmin o bölgənin delimitasiya məsələsi, Qazax-Tovuz bölgəsinin"*, - deyə Prezident İlham Əliyev vurğulayıb.

## 20 Yanvar tariximizin qəhrəmanlıq səhifəsidir!

# Qanlı tarixdən 34 il ötür...

İnsanlar fərqli tarixlərdə doğulur, fərqli tarixlərdə də dünyalarını dəyişirlər. Bəzən eyni tarixdə doğulan və ya ölən insanlara da rast gəlinir. Biz buna təsadüf deyirik. Ancaq 1990-cı ilin 20 yanvar tarixində minlərlə insanın ölüm tarixi eyni gündə yazıldı, həm də heç bir təsadüf olmadan, bilərəkdən, planı şəkildə...

Bu gün artıq o tarixdən 34 il keçir, amma xalqımızın qəlbinə vurulan yaranın acısı keçmək bilmir... 34 il öncə 20 yanvar tarixində Sovet Ordusunun seçmə hərbi hissələri fövqəladə vəziyyət elan olunmadan Bakıya yeridilmiş, misli görünməmiş dəhşətli qırğınlar törətmiş, xalqımıza qarşı amansız işgəncələr etmişlər. 20 Yanvarla bağlı xatirələr bu illər ərzində heç zaman yaddaşlardan silinmir, əksinə hər il o kədərli anları bir daha yeniləyərək, düşmənə nifrət hissini daha da artırır. Həmin gün Vətənimizin azadlığı, müstəqilliyi uğrunda mübarizəyə qalxmış insanlar düşmən gülləsinə tuş gəldilər. Qəhrəmanlıqlar, şücaətlər göstərərək həlak oldular, şəhidlik zirvəsinə ucaldılar.

**FAKT VƏ RƏQƏMLƏR**

***Qanlı Yanvar hadisələri zamanı 147 nəfər həlak olub, ümumi nəticəyə görə isə bu hadisələrdə yaralananların sayı 800, həbs olunanların və itkin düşənlərin sayı isə 1000 nəfərdən çox olub.***

***Eyni zamanda 200 ev və mənzil talan edilərək yandırılıb, 80 avtomaşın, külli miqdarda şəxsi və dövlət əmlakı məhv edilib.***

20 Yanvar hadisələrinə siyasi qiymət ilk dəfə Ulu Öndər Heydər Əliyev tərəfindən verilmişdir. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və göstərişləri ilə 1994-cü ilin mart ayının 29-da parlament "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul etdi. Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə "20 Yanvar Şəhidi" fəxri adı təsis edildi. Prezident İlham Əliyevin uğurlu sosial siyasəti nəticəsində 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələri üçün etibarlı sosial müdafiə sistemi formalaşıb və şəhid ailələrinə qayğı daim dövlətin diqqət mərkəzindədir. Prezident İlham Əliyev tərəfindən 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi məqsədilə mühüm işlər görülmüşdür. Dövlətimizin başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanına əsasən, şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə aylıq təqaüd də ayrılmışdır.











Ümummilli lider Heydər Əliyev bu faciə ilə bağlı deyirdi: ***"Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı ilin qanlı Yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Bu gün Azərbaycan xalqı onun milli mənliyini qorumaq üçün öz canlarından keçməyə hazır olan övladları ilə fəxr edir."***

Bəli, Azərbaycan xalqı nəinki 20 Yanvarda tanklardan, silahlardan qorxmayaraq irəli gedən övladları ilə, eyni zamanda 30 il sonra həmin şəhidlərin qanını yerdə qoymayıb qisasını alan, bu yolda canını fəda edən, bədənini güllələrə sipər edən, yaralanan, qazi olan övladları ilə də hər zaman fəxr edir və edəcəkdir.

*Hüseynova Mətanət*

# 7 FEVRAL AZƏRBAYCANDA PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

## Seçkilərin azad, demokratik və şəffaf şəkildə keçirilməsi təmin olunacaq

"Azərbaycan öz dövlət suverenliyini tam bərpa etdikdən sonra ölkəmizin bütün ərazisində ilk dəfə olaraq keçiriləcək prezident seçkilərinin azad, demokratik və şəffaf şəkildə təşkili üçün şəhər və rayonlarda böyük hazırlıq işləri aparılır".

Bunu Azərbaycan Respublikası Prezidenti Administrasiyasının (PA) Ərazi-təşkilat məsələləri şöbəsinin müdirinin müavini Niyaz Əliyev jurnalistlərə müsahibəsində bildirib.

N.Əliyevin sözlərinə görə, artıq 6319 seçki məntəqəsi seçkilərə tam hazırlıq vəziyyətinə gətirilib, 1000 seçki məntəqəsinə vebkameraların quraşdırılması təmin edilib: ***"Biz Azərbaycan Respublikası Prezident Adminstrasiyası rəhbərinin tapşırığına əsasən işğaldan azad olunmuş ərazilərdəyik və bu ərazilərdə seçkilərə hazırlığın vəziyyətini öyrənirik. Azad olunmuş ərazilərdə 26 seçki məntəqəsi təşkil edilib. Bu seçki məntəqələrində 22 minə yaxın seçici qeydə alınıb. Bu seçicilərin 3700 nəfəri həmin ərazilərə daimi yaşamaq üçün köçənlərdir. 18 min nəfərdən çoxu isə tikinti-quruculuq işlərində çalışan vətəndaşlardır".***

Şöbə müdirinin müavini bildirib ki, Mərkəzi Seçki Komissiyasının nümayəndələri ilə bir yerdə işğaldan azad edilmiş ərazilərdəki seçki məntəqələrinin monitorinqi keçirilir: "Bütün seçki məntəqələrinin maddi-texniki təchizat məsələləri öz həllini tapıb.

## Azad edilmiş ərazilərdəki seçki məntəqələrində hər cür şərait yaradılıb

Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyasının və Mərkəzi Seçki Komissiyasının nümayəndələri seçkilərə hazırlığın vəziyyətini öyrənmək üçün işğaldan azad olunmuş Ağdərə, Kəlbəcər, Laçın, Şuşa, Ağdam, Füzuli, Qubadlı, Zəngilan, Cəbrayıl, Xocavənd, Xocalı və Xankəndi ərazilərində yaradılan seçki məntqələrinə baxış keçiriblər. Baxış zamanı məntəqə sədrləri və üzvləri ilə seçkilərə hazırlıqla bağlı müzakirələr aparılıb.

Secki-2024.az-dan bildirilir ki, seçki prosesinin tam şəffaf və demokratik şəraitdə keçməsi üçün bütün seçki məntəqələri lazımi texniki vasitə və metodiki vəsaitlərlə, yanğın təhlükəsizliyi, fasiləsiz rabitə və elektrik enerjisi ilə təchiz olunub. Vətəndaşların seçimlərini sərbəst şəkildə etmələri üçün səsvermə kabinələri quraşdırılıb, məntəqələrə seçki qutuları və lazımi inventar avadanlıqlar paylanılıb, seçici siyahıları və məlumat lövhələri asılıb. Seçki məntəqələrinə mürəkkəb və ultrabənövşəyi lampalar və digər zəruri vəsaitlər gətirilib. Katib və üzvlər, habelə seçkini izləyəcək müşahidəçilər üçün yerlər müəyyənləşdirilib. Seçki məntəqələrinin ərazisində seçkiqabağı təşviqatın aparılması və təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün müvafiq yerlər müəyyənləşdirilib.

Fevralın 7-nə təyin olunan prezident seçkisi ilk dəfə olaraq bütün ölkə ərazisində keçiriləcək. Bunun üçün işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda 26 seçki məntəqəsi yaradılıb.

## MSK nəzdində fəaliyyət göstərən Mətbuat qrupunun iclası olub

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar yanvarın 16-da Mərkəzi Seçki Komissiyası (MSK) nəzdində Mətbuat qrupunun iclası keçirilib.

Mətbuat qrupunda təmsil olunan MSK üzvləri və qrup üzvü olan müvafiq media qurumları nümayəndələrinin, habelə beynəlxalq müşahidəçinin iştirak etdiyi iclasda əvvəlcə prezident seçkiləri ilə əlaqədar seçkiqabağı təşviqat proseslərinin gedişi barədə məlumat verilib. Bildirilib ki, yanvarın 15-dən etibarən seçkiqabağı təşviqat başlayıb və bu mərhələ səsvermənin başlanmasına 24 saat qalmış bitəcək. Müxtəlif siyasi partiyalar tərəfindən irəli sürülən, eləcə də öz təşəbbüsü ilə seçkilərə qatılan 7 namizəd qeydə alınaraq azad seçki mübarizəsinə qoşulub.

Eyni zamanda, diqqətə çatdırılıb ki, seçkiqabağı təşviqatın aparılması üçün geniş imkanlar və hərtərəfli şərait təmin olunub. Belə ki, prezidentliyə namizədlərin və namizədi qeydə alınmış siyasi partiyaların seçicilərlə görüşləri üçün 125 seçki dairəsi üzrə 139-u açıq, 139-u qapalı olmaqla, ümumilikdə 278 yer ayrılıb.

Bütün təşviqat subyektləri üçün ödənişsiz olan bu yerlərdə, heç bir icazə almadan, sadəcə digər namizədlərin və namizədi qeydə alınmış siyasi partiyaların görüşləri ilə üst-üstə düşməsin deyə, aidiyyəti dairə seçki komissiyasını əvvəlcədən məlumatlandırmaqla seçicilərlə görüşlər keçirmək olar.

## MSK-da prezidentliyə namizədlərə ayrılmış ödənişsiz efir vaxtının bölgüsü məqsədilə püşkatma keçirilib

Məzahir Pənahovun sədrliyi ilə yanvarın 15-də Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. İclasda əvvəlcə fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində seçkiqabağı təşviqat aparılması üçün İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən ayrılmış ödənişsiz efir vaxtının bölgüsü məqsədilə püşkatmanın keçirilməsi, nəticələrin protokollaşdırılması və bölgü cədvəlinin dərc edilməsi məsələsinə baxılıb. Komissiyanın iclasında qarşıdan gələn seçkilərdə seçkiqabağı təşviqat aparılması üçün İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən ayrılmış ödənişsiz efir vaxtının bölgüsü məqsədilə qeydə alınmış namizədlərin və namizədi qeydə alınmış siyasi partiyaların təmsilçilərinin, beynəlxalq müşahidəçilərin və media nümayəndələrinin də iştirakı ilə püşkatma keçirilib.

## MSK-nın "Seçki - 2024" Müstəqil Media Mərkəzi fəaliyyətə başlayıb

Mərkəzi Seçki Komissiyasının (MSK) "Seçki - 2024" Müstəqil Media Mərkəzi fəaliyyətə başlayıb.

Mərkəzin məqsədi 2024-cü il fevralın 7-də Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkiləri, onun ayrı-ayrı mərhələləri, səsvermə prosesi, seçki institutlarının, müşahidə missiyalarının, ekzitpol (exit-poll) keçirən təşkilatların fəaliyyəti haqqında dolğun məlumatları Azərbaycan ictimaiyyətinə, yerli və xarici mediaya operativ şəkildə çatdırmaqdır. Mərkəzin https://secki-2024.az/ saytı Azərbaycan, rus və ingilis dillərində fəaliyyət göstərir.

Saytda seçki prosesi ilə bağlı səlahiyyətli şəxslərin və ekspertlərin rəyləri, açıqlama və bəyanatları yerləşdirilir.

Eyni zamanda, seçkilərlə bağlı foto və videomateriallar təqdim edilir.

## Xaricdəki Azərbaycan vətəndaşlarının seçki hüququnun təmini məqsədilə müvafiq tədbirlər görülür

Fevralın 7-nə təyin olunmuş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində ölkə hüdudlarından kənarda yaşayan və ya uzunmüddətli xarici ezamiyyətlərdə olan Azərbaycan Respublikası vətəndaşlarının seçki hüququnun təmin edilməsi məqsədilə Xarici İşlər Nazirliyi tərəfindən müvafiq tədbirlər görülməkdədir.

Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqları tərəfindən ölkə hüdudlarından kənarda yaşayan və ya uzunmüddətli xarici ezamiyyətlərdə olan 18 yaşına çatmış vətəndaşlarımızdan ibarət seçici siyahıları hazırlanaraq Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim olunub.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə əsasən konsul qeydiyyatına durmuş seçicilərin sayı 50-dən artıq olan diplomatik nümayəndəlik və konsulluqlarda səsvermə həyata keçiriləcək.

Mərkəzi Seçki Komissiyasına təqdim edilmiş məlumatlar əsasında seçkilərin ölkə hüdudlarından kənarda təşkili məqsədilə ümumilikdə 37 ölkədə 49 seçki məntəqəsi yaradılıb.

## "Azərbaycanda növbədənkənar prezident seçkiləri yeni reallığın nəticəsidir"

"Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkiləri özünəməxsus mənada əlamətdar və simvolikdir.

Bu, ərazi bütövlüyünü bərpa etmiş qalib ölkədə keçirilən prezident seçkiləridir".

Bu fikri AZƏRTAC-a açıqlamasında ukraynalı siyasi ekspert Andriy Lebid söyləyib.

Onun sözlərinə görə, Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkiləri yeni reallığın, yeni vəzifələrin, məqsəd və istəklərin səbəbi, nəticəsidir: ***"Bu gün Azərbaycanın təşəbbüsləri, gələcəklə bağlı proqnozları, xüsusən də azərbaycanlıların milli ideyasının əsaslarının müzakirəsi hər zamankından daha çox diqqət mərkəzindədir".***

Ukraynalı ekspert xatırladıb ki, bütün Azərbaycan xalqı bir yumruq kimi birləşərək tarixi ərazilərini işğaldan azad etdi. Azərbaycanlıların milli ideyasından danışan Andriy Lebid əlavə edib ki, yeni dövrün yeni hədəfləri olmalıdır.

Onun sözlərinə görə, məhz Azərbaycan və azərbaycanlılar qlobal miqyasda transformasiyaya səbəb olublar.

## Азербайджан может достичь цели по увеличению доли «чистой» энергии раньше ожидаемых сроков



Об этом сказал министр экономики Азербайджана Микаил Джаббаров в ходе панельной дискуссии в рамках Всемирного экономического форума в Давосе.

«Азербайджан сделал сознательный выбор, используя свои доходы, в том числе от ископаемого топлива, для начала перехода на «чистую» энергию. И я думаю, что в нашем конкретном случае мы значительно опережаем нашу цель — к 2030 году обеспечить 30 процентов всех энергетических потребностей за счет возобновляемых источников энергии. Мы думаем, что сможем достичь этого примерно к 2028 году, если продолжим идти по тому же пути», - сказал министр.

Джаббаров отметил, что успех инициативы глобальной декарбонизации очень важен.

«Один из уроков, которые мы извлекли из предыдущих переговоров, особенно из COP28, заключается в том, что метод исключения не работает», - добавил он.

Отметим, что увеличение доли возобновляемых источников энергии в производстве электроэнергии до 24 процентов к 2026 году и до 30 процентов к 2030 году предусмотрено в Стратегии социально-экономического развития Азербайджанской Республики на 2022–2026 годы.

## Все пенсии в Азербайджане проиндексированы и повышены



Все пенсии в Азербайджане проиндексированы и повышены на 14,7 процента, согласно осуществленному в прошлом году переходу на единый метод индексации при повышении пенсий.

Об этом на пресс-конференции сказал заместитель министра труда и социальной защиты населения Азербайджана Анар Алиев.

«Средний размер пенсий доведен до 436 манатов, средний размер пенсии по возрасту - до 467 манатов. В целом в прошлом году пенсионные выплаты составили 5,7 миллиарда манатов. Выплаты пособий были увеличены на 24 процента и охватили в общей сложности около 500 тысяч человек, 378 тысяч человек получили президентские пенсии. Среднемесячная сумма адресной государственной социальной помощи на семью составила 487 манатов», - сказал А.Алиев.

Отметим, что также назван рост среднемесячной номинальной заработной платы за первые 9 месяцев 2023 года. За это время среднемесячная заработная плата выросла на 11,2 процента. За первые 8 месяцев этот показатель составлял 11,3 процента. Процент увеличения среднемесячной заработной платы - это показатель, который используется при индексации пенсий.

## Сектором Газа после завершения войны будут управлять палестинцы



После устранения угрозы со стороны радикальных элементов, контроль над сектором Газа перейдет к палестинцам, заявил министр обороны Израиля Йоав Галант в своем телеобращении, передает Trend.

«В секторе Газа проживают палестинцы, и впоследствии они будут управлять этим регионом. Будущее правительство Газы должно формироваться из местных жителей и базироваться на силе, которая не представляет угрозу для Израиля», - отметил Галант.

Он также подчеркнул, что завершение военной кампании должно быть закреплено политически.

## В Давосе обсудят «болезнь Х»

Обсуждение «болезни Х», которая по предупреждениям Всемирной организации здравоохранения (ВОЗ) может привести к смертности в 20 раз большей, чем от пандемии коронавируса, запланировано на Всемирном экономическом форуме в Давосе, передает Trend.

Мероприятие намечено на 17 января, и в ходе обсуждения эксперты, включая генерального директора ВОЗ Тедроса Аданома Гебрейесуса, министра здравоохранения Бразилии Низию Тринидади, председателя правления фармацевтической компании Astrazeneca Мишеля Демаре, рассмотрят усилия, необходимые для подготовки систем здравоохранения к потенциальным вызовам.

«Болезнь Х» – это абстрактное заболевание, которое потенциально способно вызвать эпидемию международного масштаба. Считается, что такую эпидемию, вероятнее всего, вызовет неизвестный человечеству патоген.

Гебрейесус ранее рекомендовал продолжать использовать защитные маски и прививаться от COVID-19 и гриппа в свете увеличения заболеваемости в различных странах.

## ГСССИБ: В прошлом году с помощью 1162 специальных индикаторов кибератак предотвращены целевые атаки

Благодаря анализу попыток кибератак, Государственной службой специальной связи и информационной безопасности (ГСССИБ) было выявлено 1162 специальных индикатора кибератак и путем блокировки сети AzStateNet и системы электронной почты предотвращены специальные целевые кибератаки.

Как сообщили АЗЕРТАДЖ в госслужбе, кроме того, в отчетном периоде посредством оборудования для защиты нового поколения, внедряемого в сети AzStateNet, было заблокировано 911 430 000 вредоносных ссылок, посредством центральной антивирусной системы, установленной для последних пользователей, – 7 464 500 и посредством системы защиты Sandbox – 103 650 вредоносных электронных документов, предотвращено заражение устройств последних пользователей. В то же время с использованием киберразведывательных возможностей были выявлены 186 фальшивых доменов, аналогичных доменам государственных учреждений (gov.az), и предотвращены планы хакеров по использованию государственных учреждений в специальных кибератаках и сотни кабератак.

## Фатих Бирол надеется на обсуждение вопроса финансирования в ВИЭ на COP29 в Баку



Я надеюсь, что вопрос финансирования чистых источников энергии в странах с формирующимся рынком и развивающихся странах будет поднят во время COP29, которая пройдет в Азербайджане.

Об этом сказал исполнительный директор Международного энергетического агентства (МЭА) Фатих Бирол в ходе панельной дискуссии в рамках Всемирного экономического форума в Давосе.

«На COP28 в Дубае обсуждалось многое, включая увеличение мощностей ВИЭ и инвестиций. Однако, поскольку мы собираемся инвестировать в чистую энергетику в развивающихся странах – этот вопрос предстоит обсудить в Баку в рамках COP29. За последние пять лет инвестиции в сектор чистой энергетики увеличились с 1 триллиона до 1,8 триллиона долларов США. Проблема в том, что большая часть этих инвестиций была сделана Китаем. Мы надеемся, что COP29 решит эту проблему», - отметил он.

По словам Ф.Бирола, правительства всех стран должны применять необходимые стандарты и механизмы для обеспечения эффективности этих инвестиций.

Напомним, что решение о проведении COP29 в Азербайджане было официально объявлено в Дубае 11 декабря 2023 года.

## Израиль и ХАМАС достигли соглашения



Израиль и палестинское движение ХАМАС при посредничестве Катара и Франции достигли соглашения о поставках медикаментов и гуманитарной помощи в сектор Газа. Об этом говорится в заявлении Министерства иностранных дел Катара.

«Официальный представитель Министерства иностранных дел Маджид бен Мухаммед аль-Ансари объявил об успехе посредничества Государства Катар в сотрудничестве с дружественной Французской Республикой в достижении соглашения между Израилем и ХАМАС, которое предполагает доставку гуманитарной помощи гражданскому населению в секторе Газа, включая наиболее пострадавшие районы, в обмен на передачу медикаментов удерживаемым в секторе Газа заложникам», - указано в документе, опубликованном в Х (ранее Twitter).

## Китайские экспорт и импорт упали в 2023 году



В 2023 году снизились одновременно и экспорт, и импорт Китая. Китайский экспорт в прошлом году сократился на 4,6%, составив $3,4 трлн, импорт — на 5,5%, до $2,6 трлн.

Такие данные представило Главное таможенное управление КНР. Это было первое сокращение экспорта с 2016 года. Также на 6,2% снизился профицит торгового баланса Китая, составивший $823,2 млрд.

Товарооборот Китая с США сократился за год на 11,6%, причем экспорт снизился на 13,1%, импорт — на 6,8%. В случае с ЕС товарооборот снизился на 7,1%, экспорт — на 10,2%, импорт — на 0,9%. Единственная страна, товарооборот Китая с которой существенно вырос в 2023 году,— Россия. Рост товарооборота составил 26,3%. Экспорт вырос на 46,9%, импорт — на 12,7%.

Плохие показатели за 2023 год связывают со снижением спроса из-за сложной макроэкономической ситуации и роста процентных ставок. Причем как в мире в целом, так и в Китае, где экономика восстанавливается после пандемии медленнее, чем ожидалось.

## Курить стали меньше, но смертность от табака высока

В последние годы число людей, потребляющих табак по всему миру, неуклонно снижается. Об этом говорится в докладе Всемирной организации здравоохранения, опубликованном во вторник.

ВОЗ проанализировала динамику употребления табака, начиная с 2000 года. Если в 2000 году курил или употреблял табачные изделия каждый третий взрослый в мире, то в 2020-м этот показатель сократился до каждого пятого жителя планеты, говорится в докладе.

По данным ВОЗ, на данный момент 150 стран продолжают успешно сокращать потребление табака. Начиная с 2010 года количество курильщиков в Бразилии сократилось на 35%, Нидерланды находятся на пороге достижения целевого показателя в 30%. Более 1,25 млрд взрослых людей по всему миру по-прежнему употребляют табачные изделия.

Несмотря на то, что уровень курения в большинстве стран снижается, ВОЗ предупредила, что смертность от табака будет оставаться высокой еще долгие годы. По статистике ВОЗ, в настоящее время от табака ежегодно умирает более восьми миллионов человек, включая 1,3 миллиона некурящих, ставших жертвами пассивного курения. По данным ВОЗ, в настоящее время больше всего табачных изделий потребляют в Юго-Восточной Азии (26,5% населения). На втором месте — Европейский континент (25,3%). По подсчетам ВОЗ, к 2030 году Европа может стать лидером по употреблению табачных изделий в мире.

Уровень потребления табака среди женщин в европейском регионе более чем вдвое превышает среднемировой показатель и снижается гораздо медленнее, чем в других регионах, отметили в ВОЗ.

# "COP29-da maliyyə mexanizmləri məsələsi son dərəcə vacibdir"



Bunu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov Davosda Dünya İqtisadi Forumunda keçirilən panel müzakirəsi zamanı deyib.

*"COP28 uğur idi. Enerji səmərəliliyinin artırılmasına, bərpa olunan enerji mənbələrinin həcminin artırılmasına yönəldilmiş diqqət - bütün bunları nəzərə alsaq, bunu uğur hesab etmək olar. Bu, gərgin zəhmət hesabına mümkün olub"*, - nazir bildirib.

O qeyd edib ki, COP29-un ev sahibi kimi Azərbaycan da müəyyən səviyyədə gözləntilərin olduğunu başa düşür.

*"Prosesi eyni uğurlu şəkildə davam etdirmək məsuliyyəti var. Əsas odur ki, maliyyələşmə mexanizmləri təmin olunsun. Bu, son dərəcə vacibdir"*, - Cabbarov əlavə edib.

# TAP hidrogen tədarükü üzrə sınaqlara hazırlaşır

Trans-Adriatik Boru Kəməri (TAP) konsorsiumu bu ay hidrogen tədarükü ilə bağlı sınaqlar keçirəcək.

Bu barədə Trend-in sorğusuna cavab olaraq TAP AG konsorsiumundan bildiriblər.

*"Boru kəməri ilə təbii qaz və hidrogen qarışığının nəqli üçün texniki imkanın qiymətləndirilməsi prosesindəyik. 2021-ci ildə keçirilən tədqiqatın yekunlarına görə təsdiq olunub ki, TAP potensial olaraq hidrogen qarışığını nəql edə bilər. Obyektlərimizin sınaqdan keçirilməsinə bu ay başlayacağıq və boru kəmərinin dəniz hissəsi ilə ilk nəticələrin 2024-cü ilin ikinci rübünün əvvəlinə əldə olunacağını gözləyirik"*, - deyə konsorsiumdan bildiriblər.

Bundan başqa, TAP AG-dən bildiriblər ki, konsorsiumun məqsədini hidrogenin ilkin olaraq təbii qazla qarışıq formasında nəqlini təmin etmək məqsədilə infrastrukturun inkişafı təşkil edir.

*"Hidrogen konsentrasiyasının hidrogen bazarının inkişafına və müvafiq tələbə, eləcə də həm Avropa İttifaqı (Aİ), həm də üzv dövlətlər səviyyəsində normativ bazanın inkişafına uyğun olaraq tədricən artacağını nəzərdə tuturuq"*, - deyə konsorsiumdan əlavə ediblər.

# Dövlət Neft Fondunun aktivləri 7 milyard dollar artıb

Ötən ilin sonuna Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) aktivləri ilin əvvəlinə (49 milyard 33,6 milyon ABŞ dolları) nisbətən 14,3 faiz və ya 7 milyard ABŞ dolları artıb.

Bu barədə Dövlət Neft Fondundan məlumat verilib.

Bildirilib ki, ötən il Dövlət Neft Fondunun aktivləri 56 milyard 69,7 milyon ABŞ dolları təşkil edib.

# Ölkədə faktorinq əməliyyatları üzrə ƏDV əvəzləşdiriləcək




Bu ildən Azərbaycanda faktorinq əməliyyatları üzrə ƏDV əvəzləşmə mexanizmi işə salınıb.

Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən bildirilib.

Qeyd edilib ki, sahibkarlıq subyektlərinin əməliyyatlarının faktorinq aləti vasitəsilə çevik şəkildə kreditləşdirilməsindən aktiv istifadə edilir, bu alət biznesin maliyyə yükünün azaldılması və likvidlik səviyyəsinin artırılması istiqamətində bazara ciddi şəkildə təkan verir.

Təcrübədə istehsalçılar və topdansatış ticarət fəaliyyətini həyata keçirən biznes subyektləri tərəfindən satılan malların dəyəri adətən 2-3 ay ərzində və bəzi hallarda daha gec müddətdə geri ödənilir. Bu isə istehsalçı və topdansatış ticarət subyektlərinin fəaliyyətində nağd pul çatışmazlığına səbəb olur. Belə vəziyyətdə banklar faktorinq alətindən yararlanmaqla biznes subyektlərinin maliyyə likvidliyini təmin edir və alıcılardan vəsaitlərin daxil olması ilə bağlı çətinliklər aradan qalxır.

Vergi Məcəlləsinin tələblərinə əsasən, ƏDV-nin əvəzləşdirilməsi üçün alınmış malların, işlərin, xidmətlərin əsas dəyəri satıcının bank hesabına, ƏDV məbləği isə ƏDV-nin depozit hesabına ödənilməlidir. Lakin faktorinq əməliyyatları üzrə əməliyyatların əsas dəyəri satıcıya deyil, müvafiq kredit təşkilatına ödənilir. Bu zaman Vergi Məcəlləsinin tələblərinə uyğun olaraq ƏDV-nin əvəzləşdirilməsində məhdudiyyətlər yaranır.

Faktorinq aləti mülki qanunvericilikdən irəli gələn və biznes subyektlərinə verilən hüquq olduğundan bunun vergi qanunvericiliyində də aydın şəkildə təsbit edilməsinə zərurət yarandı. Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərlə maliyyələşmə alətlərinin cəlbediciliyinin artırılması və biznesin fasiləsizliyinin təmin edilməsi üçün faktorinq alətindən istifadə zamanı ödənilmiş ƏDV məbləğlərinin əvəzləşdirilməsinin mümkünlüyü qanunvericiliyə daxil edilib.

# Vergi daxilolmaları 3,8 faiz artıb

Ötən il ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 2022-ci illə müqayisədə 3,8 faiz artaraq 16 milyard 126,7 milyon manata çatıb.

Trend Dövlət Vergi Xidmətinə istinadla xəbər verir ki, bu müddətdə qeyri-neft-qaz sektorundan vergi daxilolmaları əvvəlki illə müqayisədə 19,3 faiz artıb və 9 milyard 707,8 milyon manat təşkil edib.



# Azərbaycanda inflyasiya aşağı enib

2023-cü ildə Azərbaycanda inflyasiya 8,8%-ə enib. Bu isə ötən ilin yanvar-noyabr aylarına nisbətən 0,6% bəndi azdır.

Bu barədə Dövlət Statistika Komitəsindən bildirilir. İnflyasiya ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 9,6 faiz, qeyri-ərzaq məhsulları üzrə 8,4 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 8,2 faiz təşkil edib.

2023-cü ilin dekabr ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,5 faiz, əvvəlki ilin dekabr ayına nisbətən 102,1 faiz təşkil edib.

# "Azərbaycan "təmiz" enerjinin payının artırılması məqsədinə gözlənildiyindən tez nail ola bilər"

Bunu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov Davosda Dünya İqtisadi Forumunda keçirilən panel müzakirəsi zamanı deyib.

***"Azərbaycan qalıq yanacaqlardan istifadə etmək də daxil olmaqla, təmiz enerjiyə keçidə başlamaq üçün şüurlu seçim edib. Hesab edirəm ki, 2030-cu ilə qədər enerjiyə olan tələbatımızın 30 faizini bərpa olunan enerji mənbələrindən əldə etmək məqsədimizdən xeyli irəlidəyik. Təxminən 2028-ci ilə qədər buna nail ola biləcəyimizi düşünürük"***, - deyə nazir bildirib.

M.Cabbarov qeyd edib ki, qlobal dekarbonizasiya təşəbbüsünün uğuru çox vacibdir.

*"Əvvəlki danışıqlardan, xüsusən də COP28-dən öyrəndiyimiz dərslərdən biri odur ki, təcridetmə faydasızdır"*, - o əlavə edib.

Qeyd edək ki, bərpa olunan enerji mənbələrinin elektrik enerjisi istehsalında xüsusi çəkisinin 2026-cı ilədək 24 faizə, 2030-cu ilədək isə 30 faizə çatdırılması Azərbaycan Respublikasının 2022–2026-cı illər üçün Sosial-İqtisadi İnkişaf Strategiyasında nəzərdə tutulub.

# Azərbaycan iqtisadiyyatı artıb

2023-cü ildə ölkədə 123 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 1,1% çox ümumi daxili məhsul istehsal olunub.

Dövlət Statistika Komitəsindən bildirilib ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,7 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 3,7 faiz artıb.

ÜDM istehsalının 40,5 faizi sənaye, 10,0 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,2 faizi tikinti, 5,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 18,6 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,1 faizini təşkil edib.

Əhalinin hər nəfərinə düşən ÜDM 12114,5 manata bərabər olub.



# Mikrosahibkarlara vergi güzəştinə yenidən baxıla bilər



"Biz mikrosahibkarları sıradan çıxarmışıq".

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında deputat Vahid Əhmədov deyib.

Vahid Əhmədov bildirib ki, mütəmadi Vergi Xidməti ilə danışıqlar aparıb: *"Biz ən azı birinci rübün sonunda mikrosahibkarlarla bağlı məsələyə baxmalıyıq. Mikrosahibkarları dəstəkləməliyik. Yeni Vergi Məcəlləsi qəbul edilməli, Büdcə Məcəlləsi hazırlanmalıdır"*.

Komitə sədri Tahir Mirkişili mikrosahibkarlarla bağlı fikirlərə münasibət bildirib: *"Orada bir problem var. Hüquqi şəxslərlə mikrosahibkarlıq subyektləri arasında mənfəətin ötürülməsi ilə bağlı problem var. Müəyyən zaman keçsin, təhlillər aparaq.*

*Təhlillərin nəticəsinə uyğun olaraq, qanunvericiliyə müəyyən dəyişikliyin edilməsi mümkün ola bilər. Mikrosahibkarlıq subyektləri ilə bağlı qanuna edilən dəyişikliyin məqsədi onlardan daha çox vergi yığılması deyil"*.

Qeyd edək ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, bu il yanvarın 1-dən müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı 3 nəfərdən az olmayan və məcburi dövlət sosial sığorta haqları üzrə borcu olmayan mikrosahibkarlıq subyekti olan fərdi sahibkarların sahibkarlıq fəaliyyətindən gəlirlərinin 75 faizi gəlir vergisindən azad olacaq. Müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı təqvim ili ərzində muzdlu işçilərin sayının cəmlənərək 12-yə bölünməsi yolu ilə müəyyən ediləcək.

# Azərbaycanda orta aylıq əməkhaqqı artıb

2023-cü ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,2 faiz artaraq 923,1 manat olub. Dövlət Statistika Komitəsindən Trend-ə verilən məlumata görə, iqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.



2023-cü il dekabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1732,6 min nəfər olmuş, onlardan 899,8 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 832,8 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

Muzdla işləyənlərin 19,2 faizi təhsil, 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,0 faizi sənaye, 8,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,4 faizi tikinti, 6,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,7 faizi peşə, elmi və texniki fəaliyyət, 3,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,1 faizi maliyyə və sığorta fəaliyyəti, 14,6 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olub.

# Ötən il Azərbaycanın ümumi ixracı 34 milyard dollara yaxın olub

2023-cü ilin yanvar-dekabr ayları ərzində Azərbaycanın ümumi ixracı 33,9 milyard dollar, qeyri-neft sektoru üzrə ixrac isə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 9,8 faiz artaraq 3,3 milyard dollar təşkil edib.

Trend İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın yanvar sayına istinadən xəbər verir ki, ötən ilin yanvar-dekabr ayları ərzində yeyinti məhsulları üzrə ixrac 928,2 milyon dollara bərabər olub.

Həmin dövr ərzində elektrik enerjisinin ixracı 3,3 dəfə, spirtli və spirtsiz içkilərin ixracı 1,9 dəfə, plastmas və ondan hazırlanan məmulatların ixracı 19,3 faiz, qara metallardan məmulatların ixracı 13,3 faiz, meyvə-tərəvəz ixracı isə 8,7 faiz artıb.

Ötən il ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 6,2 faiz artaraq 969,2 milyon dollar təşkil edib. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz artaraq 201 milyon dollar təşkil edib.

Ötən ilin dekabr ayının qeyri-neft ixracı 3,8 faiz artaraq 314,3 milyon dollar olub. Yeyinti məhsulları üzrə ixrac isə 0,9 faiz artımla 106,6 milyon dollar, qeyri-yeyinti məhsulları üzrə ixrac isə 5,4 faiz artımla 207,7 milyon dollar təşkil edib.

# Mərkəzi Gömrük Hospitalında 2023-cü ilin yekunlarına həsr olunmuş hesabat iclası keçirilib




12 yanvar 2024-cü il tarixində Mərkəzi Gömrük Hospitalında 2023-cü ilin yekunlarına həsr olunmuş hesabat iclası keçirilib. İclasda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin inzibati heyəti, Mərkəzi Gömrük Hospitalının şöbə rəisləri, həkimləri və digər tibb personalı iştirak ediblər. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, tibb xidməti general-mayoru Ceyhun Məmmədov iclası açaraq 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi ilə əlamətdar olduğunu bildirib. İdarə rəisi Ceyhun Məmmədov 2023-cü ildə Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş beynəlxalq səviyyəli elmi tədbirlərin işini, Mərkəzi Gömrük Hospitalının yüksək səviyyədə tibbi xidmət göstərməsini və fəaliyyətini yüksək qiymətləndirib.

Mərkəzi Gömrük Hospitalının baş həkimi - rəisi Bəxtiyar Musayev 2023-cü ilin yekunlarına dair çıxış edib. Baş həkim Bəxtiyar Musayev Mərkəzi Gömrük Hospitalında müayinə-müalicə işlərinə nəzarət, onların təkmilləşdirilməsi, tibbi xidmətlərin çeşid və keyfiyyətinin daha da yaxşılaşdırılması, lazım olan ən müasir tibb avadanlıqlarının təchizatı, müxtəlif istiqamətlər üzrə klinik və fundamental elmlər üzrə tədqiqatların genişləndirilməsi istiqamətində görülmüş fəaliyyət barədə ətraflı məlumat verib.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, t.e.d., ürək-damar cərrahı Rəşad Mahmudov Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzi mütəmadi olaraq istər gömrük əməkdaşları, istər də Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Mərkəzi Gömrük Hospitalının əməkdaşları arasında bilik və bacarıqların artırılması istiqamətində keçirilən elmi toplantılar, təlim və seminarlar, beynəlxalq təcrübənin öyrənilməsini təmin etmək məqsədilə tibb işçilərinin yerli və beynəlxalq tədbirlərdə iştirakı barədə məruzə edib. Dr.Rəşad Mahmudov qeyd edib ki, ETTM-in birbaşa təşkilatçılığı ilə 2023-cü il ərzində ümumilikdə 65 genişmiqyaslı tədbir - 33 təlim, 10 elmi konfrans, 7 seminar, 1 forum, 9 tibbi sosial aksiya, 5 dəyirmi masa həyata keçirilmişdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini Şahlar Mirqasım etik davranış kodeksi və digər intizam məsələləri ilə bağlı çıxış edib. Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisinin müavinləri İsmayıl Əfəndiyev və Fərid Əbilov tədbir iştirakçılarının suallarını cavablandırıblar.

İclasda Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsi İnzibati idarəetmənin təşkili şöbəsinin rəisi Minurə Ağayeva, Mərkəzi Gömrük Hospitalının Alqı-satqı şöbəsinin rəisi Akif Əsgərov, İnformasiya Texnologiyaları şöbəsinin rəisi Bəhruz Muradov çıxış edərək, müvafiq olaraq öz sahələri üzrə hesabatları təqdim ediblər.

İclas zamanı Cərrahiyyə və Orqan Transplantasiyası şöbəsinin rəisi Dr.Mircəlal Kazımi, Urologiya şöbəsinin rəisi, uzman uroloq Bəhruz Xalıqov, Kardiologiya şöbəsinin rəisi, invaziv kardioloq İlqar Tahiroğlu ilin yekunlarına dair fikirlərini bölüşüb və 2024-cü ilə dair təkliflərini səsləndiriblər.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# Macarıstan, Serbiya və Sloveniya elektrik enerjisi mübadiləsi aparacaq

"Macarıstan, Serbiya və Sloveniyanın Mərkəzi Avropada elektrik enerjisi ticarəti üzrə birgə mübadiləsi 2024-cü ilin ortalarına qədər fəaliyyətə başlayacaq".

Bu barədə Macarıstanın xarici işlər və xarici iqtisadi əlaqələr naziri Peter Siyarto feysbuk səhifəsində məlumat verib.

Onun sözlərinə görə, son iki il ərzində enerji təhlükəsizliyi Avropanın ən ciddi problemlərindən birinə çevrilib: "Ölkələr arasında enerji sahəsində sıx əməkdaşlıq bəlkə də heç vaxt bu qədər vacib olmayıb. Bu, xüsusilə böyük neft və qaz yataqlarının olmadığı Mərkəzi Avropaya aiddir, ona görə də burada dövlətlərin qarşılıqlı asılılığı daha da böyükdür. Sloveniya, Serbiya və Macarıstan tərəfindən korporativ və texniki qərarlar qəbul edilib. Bu qərarlar hökumətlər tərəfindən təsdiqləndikdən sonra üç ölkənin birgə enerji mübadiləsi bu ilin birinci yarısında fəaliyyətə başlaya bilər və bu, bütün regionun enerji təhlükəsizliyini əhəmiyyətli dərəcədə yaxşılaşdırır".

# Dünyanın ən zərərli qidaları



Dünyanın ən zərərli qidası insanın orqanlarını çürüdə bilər. AZƏRTAC xarici KİV-lərə istinadla bildirir ki, bununla bağlı mütəxəssislər araşdırma edərək insan orqanizminə mənfi təsir göstərən ən zərərli qidalar barədə məlumat veriblər.

Minlərlə resept, dünyanın bir çox yerində istehlak edilən məşhur yeməklər, - bütün bunlar arasında bəziləri elə zərərli olması ilə seçilir ki, onları yeyən hər kəsi zəhərləyə bilər. Üstəlik mətbəximizə daxil olan bu qidalar dünyanın ən zərərli qidaları sırasındadır. Çox sevdiyimiz qidalar əslində düşündüyümüzdən daha çox risk daşıyır.

"Fast food" burgerlər, kartof fri - dadlı olsa belə, tərkibindəki natrium, doymuş və əlavə yağlar insan orqanizmi üçün çox zərərlidir. "Fast food" rahat və dadlıdır, lakin yeyiləcək ən qeyri-sağlam qida növlərindən biri hesab olunur. Davamlı yeyilən belə qidalar ürək xəstəlikləri, diabet və piylənməni yaratmağa müvəffəq olur.

"Fast food" hamburgerləri və çizburgerlər həddindən artıq yağ qəbuluna görə ən zərərli qidadır. Tərkibində yüksək miqdarda natrium, yağ və boş kalori olan kartof fri çox məşhur olsa da, ən pis qidalar arasındadır. Üstəlik, tez-tez hamburger kimi "fast food" məhsulları ilə birlikdə istifadə olunur.

Belə zərərli qidalardan uzaq durmaq həm orqanizm, həm də ümumiyyətlə, sağlamlıq üçün faydalıdır.

# Rusiyanın qızıl ehtiyatları 156 mlrd. dollara çatıb



Ötən ilin sonunda Rusiyanın qızıl ehtiyatları 155.9 milyard dollara çataraq yeni rekorda imza atıb.

Bu barədə Rusiya Mərkəzi Bankı məlumat yayıb. Fiziki baxımdan ehtiyat təxminən 35 ton artıb. Daha əvvəl bildirilmişdi ki, Rusiya Maliyyə Nazirliyi 2024-cü il yanvarın 15-dən fevralın 6-dək büdcə qaydasına uyğun olaraq 69.1 milyard rubl məbləğində valyuta və qızıl satışını həyata keçirəcək.

# "Citigroup" 20 min işçini ixtisar edəcək

Amerikanın maliyyə korporasiyası "Citigroup" yaxın iki il ərzində 20 min əməkdaşını ixtisar etmək niyyətindədir. "Reuters" yazır ki, bu barədə jurnalistlərə korporasiyanın maliyyə direktoru Mark Meyson bildirib. İxtisarlar 2023-cü ilin sentyabrında elan edilən və korporasiyaya xərcləri 2-2.5 milyard dollar azaltmağa imkan verən genişmiqyaslı restrukturizasiyanın bir hissəsi kimi həyata keçiriləcək.

Hazırda "Citigroup"da dünya üzrə 200 minə yaxın işçi çalışır. Şirkətin son rübdə itkiləri 1.8 milyard dollar təşkil edib ki, bu da bir sıra amillər, o cümlədən restrukturizasiya, Rusiyadakı biznesinin dayandırılması və Argentina pesosunun devalvasiyası səbəbindən 3.8 milyard dolların silinməsi nəticəsində baş verib. Rübdə mənfəət illik müqayisədə 20%-




dən çox azalaraq 1.5 milyard dollara düşüb, illik mənfəət isə 38% azalaraq 92 milyard dollar təşkil edib.

# ABŞ Ukraynaya silah tədarükünü dayandırıb

"ABŞ büdcə vəsaiti olmadığına görə Ukraynaya yeni silah tədarükü hazırlamır".

Trend-in məlumatına görə, bu barədə Ağ Evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi jurnalistlərə bildirib.

Onun sözlərinə görə, sonuncu yardım paketi dekabrın 27-də Kiyevə ayrılıb.



"Hazırda biz başqa bir yardım paketi hazırlamaq üzərində işləmirik, nə də [onun hazırlanması] və ya [yeni yardım paketinin] göndərilməsi ilə bağlı heç bir elan verilməyib", - deyə o bildirib.

C.Kirbi əlavə edib ki, ABŞ administrasiyasının hazırda bunun üçün maliyyə resursları yoxdur, "buna görə də bu yardımı davam etdirə bilməmiz üçün Ukrayna üçün əlavə milli təhlükəsizlik maliyyəsi əldə etmək bizim üçün çox vacibdir".

# Türkiyə bankları 2025-ci ildən inflyasiya uçotuna keçəcək

Türkiyədə dekabrda inflyasiya noyabrda olan 61,98%-dən sürətlənərək 64,77% təşkil edib. Türkiyə bankları 2025-ci il yanvarın 1-dən inflyasiya uçotuna keçəcək.

Bu barədə "Habertürk" telekanalı Bankaların Tənzimlənməsi və Nəzarəti Agentliyinin (BDDK) qərarına istinadən məlumat yayıb.

Bankların Tənzimlənməsi və Nəzarəti Agentliyi (BDDK) maliyyə lizinqi, faktorinq, maliyyələşdirmə, əmanətlərin maliyyələşdirilməsi və aktivlərin idarə edilməsi ilə məşğul olan bankların və şirkətlərin 2025-ci il yanvarın 1-dən inflyasiya uçotuna keçəcəyini açıqlayıb.

Türkiyənin Statistika İnstitutunun (TÜİK) məlumatına görə, dekabrda Türkiyədə inflyasiya noyabrda 61,98%-dən sürətlənərək 64,77% təşkil edib. Lakin Müstəqil İqtisadçılar Qrupu (ENAG) inflyasiyanın 127,21% olduğunu təxmin edir.

Türkiyənin maliyyə naziri Mehmet Şimşək inflyasiyanın gələn ilin sonuna qədər yarıya qədər azalacağını və 34%-ə düşəcəyini gözləyir. Dekabrda Türkiyə Mərkəzi Bankı uçot dərəcəsini 40%-dən 42,5%-ə qaldırıb.




**Azəri Light və Brent markalı neftin bir barelinin 11 – 17 yanvar tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500